Auswärtiges Amt

CIVIL SOCIETY COOPERATION

Berlin, 20 oktyabr 2023

**„Şərq Tərəfdaşlığı ölkələri və Rusiyada vətəndaş cəmiyyəti ilə əməkdaşlığın genişləndirilməsi"**

Şərq Tərəfdaşlığı ölkələri və Rusiyada vətəndaş cəmiyyəti ilə əməkdaşlığın genişləndirilməsinə dair proqram (ŞTR-proqramı) vətəndaş cəmiyyətinə onun mühüm aktyor və dövlət fəaliyyəti üzrə tərəfdaş kimi rolunun mənimsəməsinə və ölkələrdə davam edən keçid proseslərinin dəstəklənməsinə imkan verir. **Federal Hökumət Almaniya və Şərq Tərəfdaşlığı ölkələri** (**Azərbaycan, Belarusiya, Ermənistan, Gürcüstan, Moldova və Ukrayna**) **və ya Rusiyadan olan aktyorlar arasında davamlı vətəndaş cəmiyyəti strukturlarını yaradan yaxud genişləndirən tədbirləri təşviq edir. Burada söhbət alman və xarici layihə tərəfdaşları arasında əməkdaşlıqdan və vəzifələrin bərabər bölgüsündən gedir.** Buraya mədəni və siyasi-maarifləndirici layihə işlərinin bütün spektri (xüsusilə media, elm, təhsil, o cümlədən peşə təhsili, mədəniyyət, dil və gənclərlə iş) daxildir.

Xüsusilə, Rusiyanın Ukraynaya qarşı davam edən və beynəlxalq hüququ pozan təcavüzüvə onun bütün ŞTR- proqramı ölkələrinə birbaşa təsirləri bu **regionda və müvəqqəti mühacirətdə olan vətəndaş cəmiyyəti strukturlarının dəstəklənməsi zəruridir.** Cənubi Qafqazda mövcud prosesləri nəzərə alaraq, regionda vətəndaş cəmiyyətinə dəstək xüsusilə aktualdır.

Bu inkişafları nəzərə alaraq, **2024-cü ildə ŞTR proqramı çərçivəsində** əsas marağımız aşağıdakı mövzulara aid olacaqdır: (1) **regionda,** xüsusilə Ukraynada **və ya müvəqqəti mühacirətdəki demokratik yönümlü vətəndaş cəmiyyəti strukturlarının və şəbəkələrinin qorunub saxlanılması və yenidən qurulması**; (2) xüsusilə dezinformasiyaya qarşı **dayanıqlılığın gücləndirilməsi** və (3) **həssas qruplara xüsusi dəstək**.

Biz bu tədbirlərlə Şərq Tərəfdaşlığı ölkələrində vətəndaş cəmiyyətlərinin habelə Rusiya və Belarusun demokratik vətəndaş cəmiyyətinin işini gücləndirmək və cəmiyyətdə dezinformasiyaya qarşı dayanıqlılığı artırmaq istəyirik. Ümumi dəyərlərin və insan hüquqlarının müzakirəsi üçün mübadilələr, mədəni və siyasi tədbirlər, o cümlədən gənclərin akademik, peşə və ictimai-siyasi maarifləndirilməsi layihələri, onları ictimai fəallığa daha çox sövq edə bilər.

**I. Bütün layihələr aşağıda qeyd olunan məqsədlərdən ən az biri ilə əlaqəli olmalıdır:**

1. **Plüralizmi və dayanıqlılığı gücləndirmək - fikir və media müxtəlifliyini dəstəkləmək və dezinformasiya ilə mübarizə aparmaq**

Plüralizm anlayışı muasir demokratiyaların mərkəzi və qurucu elementidir. Bu demokratiyaların leqitimliyi hər şeydən əvvəl cəmiyyətdə mövcud olan fikirlər, maraqlarlar və məqsədlərin müxtəlifliyinin qəbul edilməsində və onlara hörmətdə təzahür edir.

Bununla informasıya, fikir və media müxtəlifliyinin yaradılmasına və genişlənməsinə, dezinformasiyaya qarşı mübarizəyə və davamlılığı artırmağa kömək edən layihələr maliyyələşdirilir. Xüsusilə, media aktyorlarının bacarıqlarını gücləndirmək və təkmilləşdirmək habelə yüksək keyfiyyətli və plüralist (yerli) media imkanlarına çıxışı yaxşılaşdırmaqla cəmiyyətin dezinformasiyaya qarşı davamlılığına töhfə verə biləcək layihələr nəzərdən keçirilir. Bundan əlavə, jurnalistlərə və müvəqqəti mühacirətdə qalan media işçilərinə də dəstək verilməlidir ki, onlar öz peşələrində işləyə bilsinlər.

**2. Qarşılıqlı anlaşmanı dərinləşdirmək üçün dəyərlərə dair diskursların və insan hüquqlarının təşviqi**

Bu məqsəd altında ilk növbədə mübadilə və mədəniyyət lahiyələri dəstəklənə bilər. Hazırda mövcud imkanlar çərçivəsində insan hüquqlarının qorunması, idarəetmədə qanunauyğunluq, məhkəmələrin müstəqilliyi, fərdin yaşama və azad inkişaf etmə hüququ və çoxluğun qərar qəbul etmə prinsipi kimi fundamental dəyərlərə dair fikir mübadiləsi aparmaq məqsədilə görüşlərin təşkili dəstəklənir. Həmçinin, bu dəyərlərin birgə müdafiəsi ŞTR-bölgəsində qarşılıqlı anlaşmanı və Almaniyada bu ölkələr haqqında məlumatın olmasını dəstəklənir.

Burada vətəndaş cəmiyyəti mübadiləsi və siyasi mədəni tədbirlər vasitəsi ilə yuxarıda qeyd edilən əsas dəyərləri aşılayan və gücləndirən habelə tərəfdaş ölkələrdə vətəndaş cəmiyyəti şəbəkələrinin qurulmasına töhfə verən layihələrin dəstəklənilməsi nəzərdə tutulur. Almaniyada Şərq Tərəfdaşlığı ölkələrinin müstəqil kimliyini nümayiş edən təşəbuslər, o cümlədən Rusiya təcavüzünün səbəbləri və ŞTR-regionunun tarixi haqqında diferensiallaşdırılmış anlayışın yaradılması üçün təşəbbüslər də dəstəklənir.

3. **Demokratiyaları gücləndirmək, korrupsiyaya qarşı mübarizə aparmaq, Aİ ilə daha sıx əlaqələrə doğru çalışmaq və eyni zamanda fərdi təhsil imkanlarını təmin etmək məqsədilə gələcək perspektivlər və demokratik keçid üçün şərait yaratmaq**

Bu məqsəd altında hamı üçün təhlükəsiz ictimai gələcək perspektivləri yaratmaq üçün demokratik səyləri gücləndirən təşəbbüslər irəli sürülə bilər. Xüsusilə, Ukraynada bizim prioritetimiz transformasiya proseslərinə, eləcə də Rusiyanın işğalçılıq müharibəsi nəticəsində dağılmış vətəndaş cəmiyyəti strukturlarının qorunub saxlanmasına və bərpasına dəstək verməkdir. Eyni zamanda Ukrayna, Moldova Respublikası və Gürcüstanın Avropa İttifaqına daxil olma perspektivlərinə yönəlmiş layihələr buraya öz məqsədyönlü töhfəsini verə bilər. Daha çox sosial öhdəliyi stimullaşdıran akademik, peşə və ictimai-siyasi təhsil və təlim tədbirləri də maliyyələşdırılmək üçün uyğundur. Vətəndaş çəmiyyətinin strukturları və ictimai strukturlar da xüsusi çətinliklərə məruz qaldıqları yerlərdə qorunmalıdır.

**4. Dialoqun və yaxınlaşmanın dəstəklənməsi - gələcəkdə regional münaqişələrin aradan qaldırılması üçün etimadın möhkəmləndirilməsi tədbirləri.**

Həll olunmamış regional münaqişələrdə böhranların qarşısını almaq və ya aradan qaldırmaq üçün mədəniyyət və təhsil sektorlarının alətlərindən istifadə edən və beləliklə, gələcək anlaşma üçün istiqaməti təyin edən tədbirlər maliyyələşdirilə bilər. Bu maliyyələşdirmə hədəfi 2024-cü ildə Cənubi Qafqaz ölkələrinə (Azərbaycan, Ermənistan, Gürcüstan) və Moldova Respublikasına yönəlib. Cənubi Qafqazda baş verən hazırkı hadisələri nəzərə alaraq, regionda dialoqun və yaxınlaşmanın təşviqi xüsusilə aktualdır və vacib olaraq qalır. Rusiya işğalçı müharibəsi zamanı öz mövqeylərinə görə təhdidlərə və repressiyalara məruz qaldıqlarını gördüklərinə görə Ukrayna, Rusiya və Belarusiyadan olan insanlar öz evlərini tərk edərək Şərq Tərəfdaşlığının digər üzv ölkələrində məskunlaşdılar. Bu insanların yeni vətənlərinin cəmiyyəti və vətəndaş cəmiyyəti ilə bir araya gətirilməsi aspektini nəzərə alan layihələr də maliyyəşdirmək üçün uyğundur.

**II. 2024-cü maliyyə ilində aşağıdakı <u>əsas sahələrdən</u> birinə aid olan layihələrə üstünlük veriləcəkdir:**

**(1) Avropa əməkdaşlığı kontekstində vətəndaş cəmiyyəti şəbəkələrinin qorunması və yenidən qurulması**

Biz müvəqqəti, regional mühacirət və ya vətənə qayıdış kimi dəyişmiş şəraitdə vətəndaş cəmiyyəti təşkilatlarının işini və bununla bağlı vətəndaş cəmiyyətinin yenidən qurulmasını dəstəkləyirik. Ukrayna, Moldova Respublikası və Gürcüstanın Aİ-yə yaxınlaşması prosesini dəstəkləmək üçün biz 2024-cü ildə lazımi islahatları dəstəkləyən və demokratiyanı, mətbuat

azadlığını və korrupsiya ilə mübarizəni təşviq edən layihələri maliyyələşdirməyə davam edəcəyik.

Biz, həmçinin Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova Respublikası və Ukraynaya diqqət yetirməklə yeniyetmələr və gənclər arasında mübadilə və görüş formatlarını dəstəkləyirik.
Rusiya və Belarusda geniş yayılmış repressiyalar səbəbindən bu ölkələrin vətəndaş cəmiyyətləri ilə həyata keçirilən layihələr (biz bu layihələri təşviq etmək arzusundayıq) orada yaşayan iştirakçılar üçün yüksək şəxsi risklər daşıyır. Buna görə, biz, **Rusiya və Belarusiyada demokratik yönümlü vətəndaş cəmiyyəti** üçün məkandan asılı olmayan təkliflər vermək istərdik.

### (2) Dezinformasiya kampaniyaları və saxta xəbərlərə qarşı mübarizə

Şüurlu, müstəqil və tənqidi media istehlakını təşviq etmək üçün dezinformasiya və saxta xəbər kampaniyalarına qarşı çıxan və "digital native" olmayan yerli əhalinin media savadlılığına töhfə verən layihələr maliyyələşdirilməlidir. Buraya, digər məsələlərlə yanaşı, jurnalistlərin və media mütəxəssislərinin peşəkarlaşdırılması, şəbəkələşmə və əlavə təlimlər daxildir. Rusiya və Belarusa gəldikcə, ŞT-proqramı xüsusilə müvəqqəti mühacirətdəki strukturların inkişafını dəstəkləyir. Rusiya və Belarus media mütəxəssislərinin iş qabiliyyətinin saxlanması həm Rusiya, həm Belarusiya sakinləri, həm də regionun rusdilli əhalisi üçün müstəqil xəbərlər təklifini təmin etməklə dezinformasiyanın aradan qaldırılmasına mühüm töhfə verir.

### (3) Qadınların, həssas və marginal qrupların siyasi və sosial iştirakını gücləndirmək

Buraya qadınların ictimai fəallığına dair şüurunu formalaşdıran və onların vətəndaş cəmiyyətinin digər aktyorları ilə əlaqəsini artıran layihələr daxildir. Feministyönümlü xarici siyasət çərçivəsində federal hökumət üçün əhalinin bütün təbəqələrinin siyasi qərarların qəbulunda iştirak etməsi vacibdir. Bu, qadınların siyasi məkanda hələ də kifayət qədər təmsil olunmamasına da aiddir.

Buraya təhlükə altında olan vətəndaş cəmiyyəti aktyorları, uşaqlar və gənclər, əlillər və LGBTİQ kimi həssas qruplarla işləyən layihələr, eləcə də şəhər mərkəzlərindən uzaqda/kənd yerlərində fəaliyyət göstərən layihələr daxildir.

**Rəsmi tələblər (əlavə məlumatları FAQ-dan əldə edə bilərsiniz):**

Vətəndaş cəmiyyəti əməkdaşlığı ilə bağlı layihələr **Almaniya, Şərq Tərəfdaşlığı ölkələrində** (Azərbaycan, Belarusiya, Ermənistan,Gürcüstan, Moldova Respublikası və Ukrayna) və ya **Rusiyada** həyata keçirilərsə və ən az iki təşkilatın iştirakı nəzərdə tutularsa (onlardan biri Almaniyadan və biri hədəf ölkələrdən ən azı birindən), maliyyələşdirilə bilər. Müvəqqəti mühacirətdə olan layihələr/insanlar/təşkilatlar maliyyələşdirilə bilər. **Fransa** və/və ya **Polşadan** olan tərəfdaş təşkilatların əlavə iştirakı mümkündür və qətiyyətlə alqışlanır. Müvəqqəti mühacirtdə olan tərəfdaş təşkilatlarla layihələr də maliyyələşdirilə bilər.

**Yalnız vətəndaş cəmiyyəti layihələri**, yəni dövlət və iqtisadi fəaliyyət sahəsindən kənarda olan aktyorlar **maliyyələşdirilir.**

"Maliyyə vəsaiti" ifadəsi altında layihə üçün ayrılan maliyyə vəsaitləri nəzərdə tutulur. Bu o deməkdir ki, bu vəsaitlər illik büdcə prinsipindən asılıdır. Layihələr prinsip etibarı ilə 2024-cü il ərzində, başqa sözlə **31.12.2024-cü il** tarixinə qədər **başa çatmalıdırlar.**

Maliyyə vəsaitinin minimal məbləği 50.000 avrodur; maliyyə vəsaitinin maksimal məbləği müəyyən edilməmişdir.

Layihə eskizləri (alman və ya ingilis dilində) **20 oktyabr-17 noyabr** 2023-cü il tarixədək **yalnız**

**http://oepr.diplo.de**

ünvanlı internet səhifəsi vasitəsi ilə təqdim edilə bilər. Bu internet səhifəsindən Siz layihə eskizlərinin təqdim edilməsi prosesinə dair əlavə məlumat və təlimatları əldə edə bilərsiniz.

Hər **hansı bir sualınız olduğu təqdirdə tez-tez verilən suallarla (FAQ)** əvvəlcədən tanış olmağınızı xahiş edirik. Suallarınıza burada aydınlıq gətirilmədiyi təqdirdə, Federal Xarici İşlər Nazirliyinin 601 saylı şöbəsinə ( Email: 601-oepr@diplo.de ) yaxud aşağıda adları göstərilən əməkdaşlarımıza birbaşa müraciət edə bilərsiniz:

Cənab Fabien Ness: 030 / 1817 1376 /601-1@diplo.de (Belarus, Rusiya)

Xanım Julia Luther: 030 / 1817 4272/ 601-5@diplo.de (Moldova, Ukrayna);

Xanım Mariette Pfister: 030 / 1817 7975/ 601-6@diplo.de (Azərbaycan, Ermənistan, Gürcüstan);

Cənab Daniel Demele: 030 / 184730 14 101 / daniel.demele@diplo.de

http://oepr.diplo.de ünvanlı internet səhifəsinin istifadəsində **texniki çətinliklərin** yarandığı təqdirdə xanım Julia Meltke birbaşa müraciət etməyiniz xahiş olunur (telefon: 030 / 184730 14125, E-mail: bf-f-pf-1-17@auswaertiges-amt.de).